DOI: https://doi.org/10.36719/3005-3137/7/212-223

**Elnarə Məmmədova**
ADPU, Ümumi pedaqogika kafedrası
Pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-0448-1166
elnara.mammadova24@gmail

# Türk xalqlarının pedaqoji fikir tarixi: Qazaxıstan pedaqoji fikir tarixindən səhifələr

## Xülasə

Müasir cəmiyyətin inkişaf mərhələsində təhsil yalnız bilik verməklə kifayətlənmir, eyni zamanda fərdin milli və qlobal mədəni kontekstdə formalaşmasına, sosial inteqrasiyasına və şəxsiyyət kimi tam şəkildə inkişaf etməsinə şərait yaradır. Bu baxımdan, son dövrlərdə təhsil sistemində milli və regional komponentlərə, eləcə də dövlət quruluşunun müxtəlif mərhələlərində ictimai fikrin inkişaf tarixinin öyrənilməsinə maraq artmışdır. Təhsil məzmunu yalnız akademik bilikləri deyil, həm də milli-mədəni dəyərləri, tarixi irsi və ictimai kimliyi əhatə etməlidir. Belə bir sintez fərdin həm milli kimliyini qoruyub saxlamasına, həm də müasir cəmiyyətə uğurla inteqrasiya olunmasına imkan yaradır. Bu inteqrasiya isə yalnız fərdin öz köklərini, mənəvi-mədəni irsini dərindən anlaması və dərk etməsi ilə mümkün ola bilər. Milli özünüdərk və yeni tarixi şəraitdə tərbiyə sisteminin yenilənməsi zərurəti, pedaqoji keçmişə marağın artmasına səbəb olmuşdur. Xalq pedaqogikası bu baxımdan əvəzsiz bir mənbə rolunu oynayır. Cəmiyyətimizdə baş verən ictimai-siyasi dəyişikliklər və qloballaşma tendensiyaları bizi milli köklərimizə daha sıx bağlamaqdadır. Azərbaycanın bu gün dünyada multikultural dəyərləri ilə tanınması xalq pedaqogikası və zəngin mədəni irsimizin birbaşa təsiri ilə mümkün olmuşdur. Bu şəraitdə pedaqoji elmin qarşısında duran əsas vəzifələrdən biri mövcud sosial-mədəni mühiti düzgün təhlil etmək, digəri isə xalq pedaqogikasının tərbiyəvi imkanlarını təhsil sisteminə effektiv şəkildə inteqrasiya etməkdir. Bu yanaşma həm şəxsiyyətin inkişafına, həm də milli-mədəni dəyərlərin qorunmasına xidmət edir. Qədim türklərin pedaqoji irsi – onların gənc nəslin təlim və tərbiyəsi haqqında söylədikləri dərin mənalı, hikmətli fikirlər bu gün də öz aktuallığını qorumaqdadır. Əsrlər boyu formalaşmış bu müdrik irs müxtəlif əlyazmalarda, ədəbi və tarixi abidələrdə əks olunaraq, milyonlarla insanın düşüncə və davranışına müsbət təsir göstərmişdir. Bu zəngin mənbələr, müasir dövrün pedaqoqları üçün həm tərbiyəvi,

həm də nəzəri-metodoloji baxımdan mühüm istiqamət göstəricisi rolunu oynayır. Ümidvarıq ki, bu dəyərlər yeni-yeni elmi araşdırmalar vasitəsilə yenidən işlənərək, məqalə və kitablarda əks olunacaq, nəticədə müasir gəncliyin təfəkkürünün, mənəvi dünyasının və vətəndaş məsuliyyətinin formalaşmasında mühüm amillərdən birinə çevriləcəkdir. Eyni zamanda, gələcək nəsillərdə milli-mənəvi dəyərlərə və ənənələrə bağlı sağlam dünyagörüşünün inkişafı üçün, xüsusilə Qazaxıstanın pedaqoji fikrinin formalaşmasında xüsusi yeri olan tanınmış alimlərin elmi baxışları və tərbiyəvi yanaşmaları ilə yaxından tanışlıq mühüm əhəmiyyət daşıyır.

***Açar sözlər:*** *türk xalqları, multikulturalizm, klassik irs, mənəvi mədəniyyət, pedaqoji xarakter, etnopedoqogika, etnopsixologiya*

**Elnara Mammadova**
ADPU, Department of General Pedagogy
Doctor of Philosophy in Pedagogy
https://orcid.org/0000-0003-0448-1166
elnara.mammadova24@gmail

## History of pedagogical thought of the turkish people

### Abstract

At the stage of development of modern society, education is not only limited to providing knowledge, but also creates conditions for the formation of an individual in a national and global cultural context, social integration and full development as a personality. In this regard, in recent times, interest in national and regional components in the education system, as well as in studying the history of the development of public opinion at various stages of state structure, has increased. The content of education should include not only academic knowledge, but also national-cultural values, historical heritage and social identity. Such a synthesis allows an individual to both preserve his national identity and successfully integrate into modern society. This integration can only be possible with a deep understanding and comprehension of the individual's roots, spiritual and cultural heritage. The need to renew the education system in the context of national self-awareness and new historical conditions has led to an increase in interest in the pedagogical past. Folk pedagogy plays an indispensable role in this regard. The socio-political changes taking place in our society and the trends of globalization are connecting us more closely to our national roots. Azerbaijan's recognition in the world today for its

multicultural values has been made possible by the direct influence of folk pedagogy and our rich cultural heritage. In these circumstances, one of the main tasks facing pedagogical science is to correctly analyze the existing socio-cultural environment, and another is to effectively integrate the educational opportunities of folk pedagogy into the education system. This approach serves both the development of personality and the protection of national-cultural values. The Role of Ancient Turkic Pedagogical Heritage in Modern Education and Upbringing: The pedagogical heritage of ancient Turks—reflections on the education and upbringing of the younger generation—remains highly relevant today. These deep, meaningful ideas, preserved in various manuscripts and literary monuments, have positively influenced the thoughts and behavior of millions over the centuries. This rich legacy serves as a valuable source of guidance for modern educators, both in terms of pedagogical theory and practical methodology. It is hoped that these ideas will continue to be explored through new academic research, gaining renewed life in scholarly articles and books. In doing so, they will contribute significantly to the development of the intellectual capacity, worldview, and moral consciousness of today's youth. Furthermore, in order to cultivate a healthy, value-driven outlook among future generations, it is essential to engage with the pedagogical perspectives of prominent scholars—particularly those who have played a key role in shaping the educational thought of Kazakhstan.

***Keywords:*** *Turkic peoples, multiculturalism, classical heritage, spiritual culture, pedagogical character, ethnopedagogy, ethnopsychology*

## Giriş

Müasir cəmiyyətdə təhsilin milli və regional ərazi komponentlərinə, dövlətçiliyin quruluşunun müxtəlif mərhələlərində ictimai fikrin inkişaf tarixinə maraq artmışdır. Təhsilin məzmunu digər tələblərlə yanaşı şəxsiyyətin dünya və milli mədəniyyətlərin sintezi kontekstində müasir cəmiyyətə inteqrasiya olunmuş və ümumilikdə həmin cəmiyyəti təkmilləşdirməyə qadir vətəndaşların formalaşmasını təmin etməlidir. Belə inteqrasiyaya yalnız insan öz keçmişini yaxşı biləndə nail ola bilər. Milli özünüdərk və yeni tarixi şəraitlərdə tərbiyənin daha effektiv formalarının yaradılmasına olunan cəhdlər pedaqoji keçmişə marağın artmasına yol açır. Cəmiyyətimizdə baş verən dəyişikliklər, yeniliklər bizi soy-kökümüzə daha çox bağlayır. Əgər bu gün ölkəmiz dünyadakı ölkələrin içərisində multikulturalizm baxımından yuxarı yerlərdə qərar tutursa, bu ilk növbədə tərbiyədəki milli mədəniyyətimizin və ələlxüsus xalq pedaqogikasının zəngin irsinin təsiri altında mümkündür. Bununla əlaqədar pedaqoq alimlərimizin qarşısında duran vəzifələr bir tərəfdən mövcud mühiti öyrənmək, onu formalaşdırmaqdan ibarətdirsə, digər tərəfdən

isə onun tərbiyəvi imkanlarından istifadə etməkdir.

**Tədqiqat**

Müasir xalqların mənəvi mədəniyyətinin yenilənməsi prosesi məhz pedaqoji nəzəriyyəyə və pedaqogika tarixinə yeni bir nəzərlə yanaşılmasından asılı ola bilər. Türk xalqlarının pedaqoji fikirləri ilə yaxından tanış olub, mənəvi xəzinələrimizi daha dərindən mənimsəyərək onu ictimaiyyətin diqqətinə çatdıraraq eyni məsələlərə müxtəlif prizmalardan yanaşmanı tətbiq edərək tərbiyə məsələlərini yenidən gündəmə gətirmiş oluruq. Bu gün cəmiyyətin sürətlə irəliyə doğru inkişafa cəhd etdiyi bir zamanda gənclərimizin virtual dünyanın dominant təsirlərinə məruz qaldığı bir dövrdə bu xalqların klassik irsindən gərəkli məqamları araşdırıb onların diqqətinə çatdırmaq zənnimizcə, çox faydalı ola bilər.

Bu məqsədlə illərlə türk xalqlarının tarixindən, mədəniyyətindən gizlədilmiş çox maraqlı faktlar bu günün alimləri tərəfindən açılmaqdadır. Və maraqlı burasıdır ki, bu məlumatlar bu gün də öz aktuallığını saxlamaqdadır. Bəzi türk xalqları isə zəngin pedaqoji irsə malik olduqları halda az araşdırılmışdır. Elə ona görə də pedaqogika tarixini yazmış istər avropalı, istərsə də Şərq alimlərinin əsərlərində bu mövzulara çox az toxunulmuşdur. Halbuki bu irs ümumi tarixin fikir meydanında həm ümumtürk pedaqoji fikrini və həm də ərəb-müsəlman maarifçilik təcrübəsini əhatə edir.

Qədim türklərin pedaqoji irsi gənc nəslin təlim və tərbiyə haqqında qiymətli fikirləri milyonlarla insana öz müsbət təsirini göstərməkdədir. Ümidvarıq ki, bütün bu fikirlər müxtəlif əlyazmalarında və ədəbi abidələrdə toplanaraq yeni–yeni məqalələrdə, kitablarda özünə yeni həyat qazanaraq müasir dövrün gənc nəslinin tərbiyəsində, onların təfəkkürünün və dünyagörüşünün, eləcə də davranışın formalaşmasında pedaqoji təsir qüvvəsinə malik olması üçün pedaqoqlara lazımi mənbə rolunu ifa edəcəkdir.

Gələcək nəsillərdə mövcud ənənələrə sadiq faydalı dünyagörüşünün inkişaf etdirilməsi məqsədilə dünyaya məxsus olan bütün dəyərli alimlərin fikirlərini – bu halda Qazaxıstanın pedaqoji fikrinin formalaşdırılmasında önəmli rol oynayan görkəmli alimlərinin maraqlı elmi düşüncələri ilə tanış olmaqda fayda var.

**Qazaxıstanda pedaqoji fikir tarixi.**

Təhsil həyati təminata şərait yaradan biliklərə qarşı insanların təcrübi-praqmatik tələbatından irəli gəlmişdir. Biliklər çoxaldıqca və dərinləşdikcə cəmiyyətdə təhsilin səviyyəsi yüksəldikcə alimlər bir daha insan və kainat, insanla təbiətin bütövlükdə qarşılıqlı təsiri haqda dərindən düşünməyə başladılar. Təcrübə və fəlsəfə adlanan bu iki məfhum müxtəlif sivilizasiyalarda və mədəniyyətlərdə təhsili zəruri edən ilkin səbəblərdir. Qazaxıstan elində pedaqoji fikir öz başlanğıcını əsasən

VII əsrdən götürmüşdür. Pedaqogikaya aid olan məsələlərə ilk dəfə Orxon-Yenisey abidələrində rast gəlinmişdir. Sonrakı inkişafını isə Qorqud-ata, Əl-Fərabi, Yusif Balasaqunlu, Mahmud Kaşğari, Axmat Yuneyki, Xoja Axmat Yəsəvi, Seyf Sərayinin əsərlərində görmək olur.

XI əsrdə Qazaxıstan ərazisində **Yusif Balasaqunlunun** "Qutadqu bilik" adlı didaktik poeması , Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" (türklər üçün lüğət) əsəri, Əhməd Yuneykinin (XII əsr "Həqiqətlərin hədiyyəsi") "Xikbatul xixayk" kimi qiymətli əsərləri özündə çox maraqlı mədəni-tarixi və pedaqoji xarakter ehtiva edir (Qazaxıstanın pedaqoji fikir antologiyası, 1998, s.24).

Balasaquninin poemasında biliklərin qazanılması və onun insan həyatında və xoşbəxtliyində rolundan bəhs edilir.

"Qutadqu biliy"in, demək olar ki, hər fəsli sanki "Biliklərə yiyələnin" çağırışını əks etdirir. Amma şair təhsilin yalnız varlılara aid olduğunu, sadə xalqın isə biliklərə, ümumiyyətlə, yaxın durmamasını hesab edirdi.

Əhməd Suyneki isə əksini həqiqət olaraq hesab edirdi. O deyirdi ki, biliklər ilk növbədə imkansızlara lazımdır.

"Lüğətin" folklor materiallarında (atalar sözlərində, əfsanələrdə və s.) etik-pedaqoji və mənəvi-psixoloji ideyalara tez-tez rast gəlinir. Xoja Axmet Yasəvi Qazaxıstanda orta əsrlərdə sufizmin banilərindən hesab olunur. O, təlim və tərbiyəyə az töhfə verməmişdir. O, özünün müdriklər haqqında olan "Divani-hikmət" dini-fəlsəfi traktatında insanın etik həyatının əsas normaları haqda danışır.

**Əl Fərabi:** İndiki Otrar-Fərab ərazisində dünyaya göz açmış görkəmli ensiklopedist mütəfəkkir alim Əbu Nəsr Məhəmməd ibn Tərxan ibn Yelaq əl Fərabini Aristoteldən sonra ikinci müəllim "əl müəllim əs-sani" deyə adlandırırdılar. Doğrudan da, onun elmi-fəlsəfi işlərində didaktikanın mühüm problemlərinin həlli öz dolğun əksini tapmışdır.

Əl-Fərabinin pedaqoji irsində təhsil və təlim vasitələrinin hazırlanması ilə əlaqədar məsələlər öz əksini tapmışdır. Bu sahədə o, böyük müvəffəqiyyətlər qazanmışdır. Ərəb tarixçisi İbn-Xallikan (XIII əsr) özünün "Məşhurların və zamanının övladları haqqında" hazırladığı bioqrafik məlumatlarında yazırdı: "Əl-Fərabi islamın dərinliklərinə nüfuz edərək onun bəzi qaranlıq məqamlarını öz güclü məntiqi təfəkkürü ilə işıqlandıra bilmişdir. Onun bu mövzudakı kitabları yüksək keyfiyyətlərə malikdir. Əl-Fərabinin qələmindən çoxlu sayda dərs və metodiki kömək vəsaitləri çıxmışdır (Əl-Fərabi, 1989, s.17).

Şifahi tədrisdə Əl-Fərabi evristik söhbət (dialoq) problem situasiyaların yaradılması və mübahisəli ziddiyyətlərin həllinə yönəldilən üsullardan istifadə edirdi.

Fəlsəfə və Məntiq: Əl-Fərabi Aristotel fəlsəfəsini dərindən öyrənib və onu

inkişaf etdirib. Məntiqi insan düşüncəsinin əsas aləti hesab edib. O, məntiqi "elmə gedən doğru yol" adlandırırdı.

İdeal Cəmiyyət: Əl-Fərabi "Fazil şəhər" (yəni ideal, fəzilətli şəhər) ideyasını irəli sürüb. Ona görə, ən yaxşı cəmiyyət düzgün idarə olunan, ədalətli, elm və hikmətə əsaslanan cəmiyyətdir.

Din və Fəlsəfə: Əl-Fərabi dini və fəlsəfəni ziddiyyətli yox, tamamlayıcı sahələr kimi görürdü. O, hesab edirdi ki, din sadə insanlara həqiqətləri simvolik dillə çatdırır, fəlsəfə isə bu həqiqətləri rasional düşüncə ilə izah edir.

Musiqi: Əl-Fərabi musiqi elmi sahəsində də böyük işlər görüb. Musiqinin insan ruhuna təsirini və musiqi nəzəriyyəsini geniş izah edib.

XIII-XVII əsrlərdə hələ Qazaxıstanda pedaqogika və psixologiya sahəsində elmi biliklərin müəyyənləşmiş bir sistemi hələ yox idi. XV əsrin ortalarında indiki Qazaxıstanın ərazisində erkən feodal dövlət birlikləri yaranmağa başladı. Məhz elə bu dövrdən özəl qazax mədəniyyəti və təhsili öz inkişafına rəvac vermişdir.

Etnopedaqogika və etnopsixologiya məsələləri ilə Şokan Vəlixanov, İbray Altınsarin və Abayın əsərlərində öz əksini tapmışdır. Onların bəzi baxışları ilə tanış olaq.

**İbray Altynsarin** Qazaxıstanda milli pedaqoji fikir tarixində İbray Altynsarinin fəaliyyəti xüsusi yer tutur. O, Qazax xalqının maariflənməsi üçün ilkin ana dili dərsliklərini hazırlamış, təhsildə humanizm, əmək tərbiyəsi və əxlaqi formalaşma məsələlərini önə çəkmişdir. Altynsarin təhsilin yalnız bilik ötürmək deyil, həm də şəxsiyyət formalaşdırmaq vasitəsi olduğunu vurğulayırdı (Altynsarin, 2006, s.37).

Onun fikrincə, müəllim uşaqla mənəvi yaxınlıq qurmalı, dərs prosesi isə məcburiyyət deyil, maraq və mənəvi stimul üzərində qurulmalıdır. Ölkədə geriliyin və konservatizmin əleyhinə olan yeni proqressiv istiqamətin carçısı olmuşdur. Həmçinin Altynsarin Uşinskinin pedaqoji ideyalarının ilk tərəfdarlarından idi. Onun prinsipləri belə idi:

- Öyrənmənin sonu – bilikdir.
- Öyrənmək iynə ilə quyu qazmağa bənzəyir.
- Bilikli adam irəli, biliksiz adam isə geriyə gedir.
- Ölüncəyə qədər öyrənmək gərək.
- Bilikli adam, alim adam axının əksinə də üzər.
- Savadlı insan ölməz, savadsız isə yaşaya bilməz.

İbray Altynsarin - təşəbbüskar pedaqoq öz praktiki fəaliyyətini qazax xalqının maarifçilik ideyalarını, mədəniyyətini, inkişafını rus xalqının mədəniyyəti və elminin təsiri altında inkişaf etmiş xalqların sırasında görməyi çox arzu edirdi. İbray

Altynsarinin fikrincə bu məqsədə çatmaq üçün mövcud patriarxal – nəsil quruluşunun kökündən dəyişilməsi labüd idi. O, təhsilə - öz məqsədlərinə çatmaq üçün bir vasitə kimi deyil, əksinə gənclərə sosial mühiti dəyişdirmək üçün zərurət hesab edirdi.

Altynsarin təhsil məsələlərini həyatın tələbləri, xalq kütlələrinin tələbatı olaraq qiymətləndirirdi. O belə hesab edirdi ki, məktəb əqli inkişafla yanaşı təhsilalanın şəxsiyyətinin əxlaqi təkmilləşməsini də təmin etməyə qadir olmalıdır.

Altynsarin yazırdı: “Xalq məktəbləri üçün müəllim çox əhəmiyyətlidir: onların işi nə mərhəmətli moizələrlə, nə də ciddi inspektor nəzarəti ilə müqayisə edilə bilməz” (Auezov, 1930, s.58)

Altynsarin təlim prosesinin təşkilində əsas rolun ilk növbədə müəllimlərə xas olduğunu, həllledici rolun isə tədris-material bazaya aid olduğunu və dərsliklərin qazax məktəbləri üçün yararlı olub-olmadığını ciddi araşdırmalı olduğunu vurğulayırdı.

Məktəbdə alınan bilik və bacarıqları Altynsarin formal təhsil nöqteyi-nəzərindən deyil, onun xalqa onun məsuliyyətli keçid dövründə real, həqiqi, fayda verə biləcəyi baxımından qiymətləndirirdi. Odur ki, o, məktəb üçün hansı fənlərin keçirilməsinin zəruriliyi barədə fikirlər irəli sürür və öz seçiminin pedaqoji təhlilini – necə öyrətmək və nə üçün öyrətmək kimi prinsiplər əsasında müəyyənləşdirirdi. Nə qədər ki, gec deyil sağlam düşüncəyə malik, bacarıqlı qazax xalqına onu arzuolunan ictimai inkişafa apara biləcək doğru istiqamət vermək lazımdır. Qazax xalqının iqtisadi cəhətdən yüksəlməsi məqsədilə məktəblərin indikindən daha möhtəşəm əsaslarla təmin edilməsini vacib hesab edirdi. Beləliklə, o, məktəbin verdiyi biliklərin səviyyəsini yüksəltmək zərurətini irəli sürürdü. “Yaxşı təhsil vermək lazımdır, necə gəldi öyrətmək olmaz”, “Təlim kitabına elmin ruhunun hopması gərəkdir”.

Göründüyü kimi, Altynsarinin bir əsrə yaxın bundan əvvəl söyləmiş olduğu fikirlər bu günün təhsil sisteminin ideyalarına uyğun səslənir.

**Abayın** pedaqoji görüşləri feodal quruluşunun şərtləri altında formalaşırdı. Ancaq buna baxmayaraq bəzi pedaqoji problemlərə görə hətta bizim bugünkü nöqteyi-nəzərlərimizlə üst-üstə düşür. Abay qazax maarifçiləri, alimləri və pedaqoqları arasında uşaqların tərbiyə prosesində onların yaş və psixoloji xüsusiyyətlərinin nəzərə almağa səsləyən birincilərdən idi. Abay nə pedaqoq alim, nə sözün əsl mənasında pedaqoq -professional praktik olmasa da o öz müşahidələri nəticəsində proqressiv tendensiyalara əsaslanaraq müasir pedaqoji fikirlərin formalaşmasında mühüm rola sahib olaraq özünü gənc nəslin təlim və tərbiyəsində öz baxışları ilə seçilən bir pedaqoq-məsləhətçi kimi tanıtmışdır.

Abay Kunanbayevin maarifçilik görüşləri Qazaxıstanın pedaqoji düşüncəsində dərin iz qoymuşdur. O, cəmiyyətin tərəqqisinin bilik və elmə söykəndiyini

vurğulayaraq təhsilin əsas məqsədinin mənəviyyatlı, məsuliyyətli və əməksevər insan yetişdirmək olduğunu bildirmişdir. Kunanbayev hesab edirdi ki, müəllimlər uşaqlara yalnız tədris etməməli, həm də şəxsiyyətin daxili dünyasını zənginləşdirməlidirlər (Kunanbayev, 2015,s.25). Bu baxışlar Qazaxıstanda milli təlim və tərbiyə sisteminin mənəvi əsaslarının formalaşmasına zəmin yaratmışdır.

Abay (tam adı: Abay Qunanbayuli) qazax xalqının nümayəndəsidir.

O, XIX əsrin sonu — XX əsrin əvvəllərində yaşamış böyük qazax şairi, filosofu, maarifçisi və ictimai xadimidir. Abay qazax ədəbiyyatının və mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.

Abayın gələcəyə yönəlmiş proqressiv ideyaları gəncləri çoxlu bilik qazanmağa, işığa doğru səsləyirdi. O yazırdı:

Yalnız kamalla yaşayır insan,
Yalnız kamalla dönür əsrimiz
Yalnız biliklərdir qəlbin işığı.

O, həyatda beş faydalı keyfiyyəti qazanmağa çağırırdı: ağıl, mərhəmət, əzmkarlıq, ciddiyyət və zəhmət.

Əgər alim olmasan da
Gər başqa oxa tuş gəldikdə sən də
Bilikləri qazansan bil
Rəvan həyat səninlədir
Demə ki, bacarmaram
Sən qəlbinlə irəlilə.

Şair-pedaqoq hesab edir ki, müəyyən zəruri miqdar biliklə insan dünyanı dərk edir, pisi yaxşıdan, faydalını zərərlidən fərqləndirməyi öyrənir və yalnız o zaman o, qazax cəmiyyətinin proqresi üçün faydalı ola bilər. Abay gənclərə müraciətində deyir:

İnan mənə, ey gənc!
Qiymətlidir bilik, ağıl
Məqsədləri fəth edəsən
Sənin olanı qorumaq üçün.

Abay biliyi var-dövlətdən, şöhrətdən, fəxarətdən, başqa sözlə hər şeydən üstün tutur. O, gəncləri təkcə elmlərə yiyələnməyə deyil, həm də onlara buna çatmağın yollarını da göstərir. O belə hesab edir ki, təlim məcburi vəzifə kimi deyil, əyləncəli,

sevinclə müşayiət olunan bir formada reallaşmalıdır. Təlimdən zövq almaq və öyrənmə sevincini yaşamaq uşaqlarda möhkəm biliklərin qazanılmasında ən effekiv bir yoldur (Abay,1982, s. 65).

Mütəfəkkir hesab edir ki, biliklərin qazanılmasında vacib mərhələ ilkin təhsildir. Elmin, təhsilin zirvələrinin fəth edilməsi yollarında ilkin savadın və eyni zamanda yaxşı insani keyfiyyətlərin əldə edilməsinin əhəmiyyəti böyükdür. Dahi mütəfəkkir didaktik prinsiplər müəyyənləşdirmişdir:

1.Təlim – sadədən mürəkkəbə

2.Təlim uşağın qavrayışına yaxın, onun üçün əlçatan olmalı, ona tanış olsa da yalnız dərk etməsi üçün qaranlıq olan olmalıdır.

3.İnsan elmlə o zaman uğurla silahlanar ki, ona doğru o özü sərbəst irəliləsin.

4.Təlimdə əyanilik çox vacibdir. İnsan dünyanı gözləri ilə müşahidə edərək, qulaqları ilə eşidərək, əlləri ilə əşyaya toxunaraq, burnu ilə iyi çəkərək və dili ilə dadı duyaraq dərk edir.

5.Təlim zamanı şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır.

6.Təlim doğma dildə aparılmalıdır. Biliklərin əsasını, vacibini uşaq öz ana dilində qavramalıdır. Və yalnız bundan sonra digər dillərin öyrənilməsinə keçilə bilər.

Pedaqogika elmi ayrıca bir elm sahəsi kimi 1920-1990-cı illərdə tədqiq olunmağa başlamışdır. Qazaxıstanda ictimai elmlər, o cümlədən pedaqogika və psixologiya elminin inkişafını 3 mərhələdə izləmək olar:

1. Pedaqoji elmin meydana gəlməsi (1920-1930-cu illər)

2. Durğunluq illərindən sonra pedaqoji fikrin yeni inkişaf mərhələsi (1970-1990)

3. Demokratiya yolunda pedaqogika elminin inkişafı (1999-cu ildən indiki dövrə qədər)

Sovet hakimiyyətinin qurulduğu ilk illərdən Qazaxıstanda milli mədəniyyətin inkişafına rəvac verilmişdir.

20-ci illərdə məktəbin bir neçə növü artıq fəaliyyət göstərirdi.

- Məktəbin birinci pilləsi – dörd illik kurslar
- Internat tipli – məktəb icmalar
- Ikinci pillə yeddiillik məktəb.

Qazax və uyğur məktəbləri üçün proqramların müəyyənləşməsi üçün Xalq Təhsil Komisarlıqlarında təlim-metodik şuralar təşkil olunurdu. Bu şuralardan birinə məşhur alim Saldıbayev rəhbərlik edirdi. Bu şuranın digər üzvləri də məşhur alim və yazıçılar daxil idilər: S.Seyfullin, M.Auezov, B.Maylin, K.Subanov, A.Kazıbakiyev, A.Sadıkov, Ş.Sarıbayev, L.Aysarin. Onlardan bəzilərinin pedaqoji irsi üzərində dayanaq.

Haqlı olaraq alim-pedaqoq adlandırılan **M.O. Auezov** təhsilin problemləri ilə maraqlanan məşhur sovet yazıçılarından biridir. Onun ədəbi və pedaqoji fəaliyyəti Ç.Vəlixanovun, S.Altynsarinin, Abayın təsiri altında onların fikirlərinin davamı olaraq həyata keçmişdir.

Beləliklə, M.Auezov millətlərarası irsiyyət dili hesab edilən rus dilinin qazax məktəblərinin ibtidai siniflərində tədrisi üçün nəzərdə tutulan metodik vəsaitin nümunəvi variantının müəllifi olmuşdur. Dərslik "Yeni aul" adı altında nəşr edilmişdir. 1930-cu ildə M.Auezov Qızıl-Ordada "Yeniyetmə" adlı kitab nəşr etdirir. Bu kitab öz növbəsində ibtidai siniflərin tədris proqramlarına uyğun şəkildə və onun yeniyetmə gənclərə yararlı vəsait olaraq tərtib olunmuşdur. Kitabın maraqlı cəhəti həm də onun müasirliyində idi. Belə ki, bu kitabı elmi bir zəhmətin nəticəsi olmaqla yanaşı, həmçinin qazax xalqının ictimai həyatında yaranan, müşahidə olunan siyasi hadisələrin izahlı şərhi kimi də qəbul etmək olar (Auezov, 1930, s. 34).

M.Auezov pedaqoq-alim olaraq gənc nəslin tərbiəsinə və özünütəhsil ilə onun biliklərinin zənginləşməsinə də çox böyük əhəmiyyət verirdi. M.Ayezovun elmi-pedaqoji işlərində təhsilalanların müstəqil işləmək və özünütəhsil metodikasının əsaslarını işləyib hazırlamışdı. O belə hesab edirdi ki, müəllim uşaqlara bilikləri müstəqil qazanmağın yollarını, qəzetlə, kitabla sərbəst işləməyə alışdırmaqla yanaşı onlara şifahi və yazılı şəkildə əldə etdikləri fikirləri ifadə etməyi bacarmağı, düzgün nəticələr çıxarmağı və ümumiləşmələr aparmağı öyrətməlidir. Bundan ötrü elə təlim metodlarından istifadə edilməlidir ki, onlar şagirdə müstəqil bilik əldə etmək və sərbəst düşünə bilmək qabiliyyəti aşılasın.

Alim-pedaqoq əmindir ki, ev tapşırıqları böyük əhəmiyyət daşıyır. Əgər onu düzgün təşkil edə bilsən, onları sərbəst işləməyə öyrədər, bilik və bacarıqlara yaxşı yiyələnməyə kömək edər. Şagirdləri sərbəst işləməyə alışdırmaq lazımdır. Çünki məktəbdə çox az həcmdə biliklər verilir. 1925-ci ildən başlayaraq "Yeni məktəb" pedaqoji jurnalı buraxılmağa başlamışdır. Bu jurnalın səhifələrində pedaqoji və psixoloji problemləri əhatə edən elmi-metodiki məqalələr çap olunurdu. Qazax və uyğur məktəbləri üçün proqram və vəsaitlər hazırlanırdı. İndi Qazaxıstanın Xalq Maarif Komissarlığı qarşısında pedaqoji kadrların hazırlanması məsələsi durur. Bu məqsədlə texnikumlar, Abay adına Qazax Dövlət Pedaqoji İnstitutu adlı birinci Ali tədris müəssisəsi (1928-ci il) açılmışdır (Taycanov, 1990, s. 64).

Bu illərdə məşhur pedaqoqların orta ixtisas və ali təhsil müəssisələri üçün vəsaitləri çapdan çıxdı:"Pedaqogika" Aytmautov (1926-cı il), "Pedaqogika" M.Sumbayev (1922), "Məktəbəqədər tərbiyə" N.Kuljanova adlı əsərlər . Qazaxıstanın alimləri tədris-metodik vəsait və dərsliklərlə məşğul olan bir mərkəzin yaradılması məsələsini qaldırdılar. Bu məqsədlə 1932-ci ildən respublikada elmi-pedaqoji kabinet

yaradıldı. Hansı ki, 1933-cü ildə yenidən təşkil olunaraq pedaqoji elmlər üzrə fəaliyyətini Elmi-Tədqiqat İnstitutu davam etdirdi. Elə bu illərdə doğma dildə S.Qocəhmədov "Pedaqoji problemlər" 1940-cı il, "Məktəblilərdə şüurlu davranışın tərbiyəsi 1940-cı il, K.Muxamecanov "Şagird kollektivi və kollektiv tərbiyə haqqında", S.Əlyanov "Abayın pedaqoji görüşləri" 1934, "Estetik tərbiyənin əsasları" 1937, 1950-1970-ci illərdə Qazaxıstanın pedaqoji elmində yeni inkişaf yüksəlişi yetişir. Bu illərdə P.Q.Lemberq, A.Sıdıkov, T.Tajıbayev, A.İ.Senbayev, K.Berjanov, S.Kirabayev, M.Qabdulin, M.Mukanov, Q.A.Umanov, H.D.Xmel, K.Jarıkbayev, İ.B.Madin, K.Kunanbayev, Q.Sabirov və b. seçilirlər.

Qazaxıstanın pedaqoji fikir tarixini necə deyərlər vərəqlədik. Nə qədər vaxt keçsə də alimlərin dünyagörüşləri maraqlıdır və bu günlə səsləşir, bu günün problemlərinə belə işıq salır.

Zaman-zaman tədqiqatçı-alimlərimiz öz elmi araşdırmalarında Qazaxıstanın maarifçi-pedaqoji fikir daşıyıcıları – Abay Kunanbayev, İbray Altynsarin, Axmet Baytursınov – ilə Azərbaycanın maarifçilik ənənəsinin görkəmli nümayəndələri olan Həsən bəy Zərdabi, Firidun bəy Köçərli, Məhəmməd Tağı Sidqi və başqaları arasında ideya və məqsəd birliyinə diqqət çəkmişlər. Bu mənada, Qazax və Azərbaycan pedaqoji fikri ortaq mənəvi-tarixi yaddaşın və ümumtürk təhsil fəlsəfəsinin daşıyıcısı kimi dəyərləndirilə bilər.

## Nəticə

Göründüyü kimi, Qazax və Azərbaycan pedaqoji fikir tarixləri ortaq mədəni-tarixi köklər və maarifçilik prinsipləri əsasında formalaşaraq bir-birini tamamlayan təcrübə nümunələri yaratmışdır. Bu baxımdan, türkdilli ölkələrin pedaqoji fikir və maarifçilik irsi üzrə müqayisəli tədqiqatların daha da genişləndirilməsi, ortaq dərslik layihələrinin hazırlanması, alimlərin birgə konfranslarının təşkili, elmi məqalə topluları və elektron platformalar vasitəsilə qarşılıqlı elmi əlaqələrin gücləndirilməsi, illərdir bir-birindən uzaq düşmüş türk xalqları arasında elmi-mədəni inteqrasiyanın bərpası, ümumi mənəvi-mədəni yaddaşın dirçəldilməsi və vahid pedaqoji fəlsəfənin formalaşdırılması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Gələcəkdə bu istiqamətdə tədqiqatların metodoloji baxımdan sistemləşdirilməsi və müasir təhsil modellərinə inteqrasiyası türkdilli ölkələrin ümumi təhsil fəlsəfəsinin formalaşmasına əhəmiyyətli töhfə verə bilər.

UNESCO-nun (2020) hesabatına əsasən, Orta Asiya ölkələrində, o cümlədən Qazaxıstanda təhsil sistemi dinamik inkişaf mərhələsindədir. Regionun təhsil siyasətində əsas məqsəd keyfiyyətin artırılması, inklüzivlik və müasir pedaqoji metodların tətbiqidir. Qazaxıstan hökuməti beynəlxalq təhsil standartlarına uyğun islahatlar aparmaqla, milli təhsil sisteminin inkişafına xüsusi diqqət yetirir. UNESCO

bu prosesləri regional əməkdaşlıq, təcrübə mübadiləsi və beynəlxalq platformalarda dialoq vasitəsilə dəstəkləyir.

Bu yanaşma, əslində, Abay Kunanbayev, İbray Altynsarin və Axmet Baytursınov kimi Qazaxıstan maarifçi-pedaqoqlarının əsərlərində irəli sürülən ideyaların müasir davamı kimi də qiymətləndirilə bilər. Beləliklə, bugünkü təlimin mahiyyətini formalaşdıran əsas prinsiplərin təməli məhz həmin maarifçi-pedaqoqlar tərəfindən qoyulmuşdur.

## Ədəbiyyat


1. Əl-Fərabi. Elmi yaradıcılıq. Alma-Ata. Məktəb, 1989.
2. A.Kuybesov. Əl-Fərabinin pedaqoji irsi. Alma-Ata, Məktəb, 1989.
3. Abay. Снова назидания.Alma-Ata. Jalın, 1982.
4. M.Auezov. Yeniyetmə. Kızıl Orda. 1930. 101 s.
5. A.Taycanov. Muxtar Auezovun pedaqoji görüşləri. Alma –Ata, Rayan, 1990. 72 s.
6. Qazaxıstanın pedaqoji fikir antologiyası hissə 2. Составители ; k.Jarıbekov, C.Kaliyev. Almatı:Rayan, 1998, 416 s.
7. Altynsarin, İ. (2006). Maarifə dair seçmə yazılar (Tərc. A. Xəlilov). Bakı: Təhsil , 150 s.
8. Abay Kunanbayev. (2015). Elm və maarif haqqında fikirləri (Toplu). Bakı: Elm. 110 s.
9. Baytursınov, A. (2013). Ana dili və maarifçilik məsələləri (məqalələr toplusu, tərc.). Bakı: Nurlan.
10. Rüstəmov, F. (2006).Pedaqogika tarixi. Bakı: Nurlan.
11. Rzayeva, R. (2012). Qazaxıstanda pedaqoji fikir və milli təhsil sisteminin inkişaf mərhələləri. Azərbaycan məktəbi, (4), 28–32.
12. Jakypov, S. (2010). Pedagogika tarixi. Almatı: Raritet.
13. UNESCO. (2020). Orta Asiya ölkələrində təhsil: trendlər və çağırışlar. Paris: UNESCO nəşriyyatı. Regional təhsil inkişafı və trendlər barədə beynəlxalq mənbə.


**Daxil oldu: 26.05.2025**
**Qəbul edildi: 20.07.2025**